# Beynəlxalq tranzit marşrutları Azərbaycana iqtisadi mənfəətlə yanaşı, həm də siyasi dividend qazandırır

**Hazırda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) Avropaya yüklərin daşınmasında Mərkəzi Asiya ölkələri və Çin üçün prioritet marşrutdur.**

AZƏRTAC xəbər verir ki, sentyabrın əvvəlində Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev xalqa müraciətində 2025-ci ildə Xəzər dənizi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsinin başa çatacağını bildirib. Dövlət başçısı qeyd edib: "Bu, beynəlxalq dəhlizlərə və transsərhəd məlumat axınlarına qoşulacaq rəqəmsal infrastrukturun yaradılması baxımından ölkəmiz üçün son dərəcə vacibdir. Ümumiyyətlə, biz telekommunikasiya şəbəkələrinin və məlumat mərkəzlərinin fəal inkişafını davam etdirməli, qlobal kibertəhlükəsizlik standartlarını tətbiq etməli, mütəxəssislərimizin səriştəsini artırmalıyıq".

Artıq sentyabrın 6-da Qazaxıstan, Azərbaycan və Özbəkistanın energetika nazirləri Daşkənd Beynəlxalq İnvestisiya Forumu çərçivəsində öz dövlətlərinin enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə əməkdaşlıq memorandumu imzalayıblar. Sənəddə nəzərdə tutulur ki, iştirakçılar Xəzər dənizinin dibi boyunca və digər ölkələrin ərazisindən keçməklə yüksəkgərginlikli kabel çəkərək, enerji sistemlərinin birləşdirilməsi imkanlarını öyrənəcəklər ki, bu da Avropa İttifaqı (Aİ) ölkələrinə "yaşıl enerji" təchizatının texniki-iqtisadi baxımdan ən optimal variantını həyata keçirməyə imkan verəcək.

Forum çərçivəsində Qazaxıstanın energetika naziri Almasadam Satkaliyev Xəzər dənizinin dibi ilə dərin dəniz kabelinin çəkilməsi üçün əvvəllər hazırlanmış texniki spesifikasiya layihəsinə diqqət çəkib və bu layihə çərçivəsində beynəlxalq ötürmə dəhlizlərinin inkişafı və "yaşıl enerji"nin Aİ ölkələrinə satışı üçün təklif olunan biznes modelinin işlənib hazırlanacağını bildirib.

Üç gün sonra, sentyabrın 9-da Prezident Tokayev Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüş keçirib. Görüş əsnasında enerji, nəqliyyat və logistika sahələrində əvvəllər əldə




edilmiş razılaşmalar müzakirə edilib və onların icrasının gedişindən məmnunluq ifadə olunub.

Beləliklə, Mərkəzi Asiya dövlətlərinin və Azərbaycanın TITR-in dinamik inkişafında maraqlı olduğu açıq-aşkar görünür.

Qazaxıstanın nəqliyyat marşrutlarından, o cümlədən Azərbaycan istiqamətindən istifadə etməklə Avropa ilə ticarət də fəal inkişaf edir. Üstəlik, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ötən il Qazaxıstanın Xəzər dənizindəki Aktau limanına səfəri rəsmi Berlinin TITR-in inkişafına marağını nümayiş etdirib və bu dövlət onun vasitəsilə Çindən Avropaya mal tədarükünü artırmaq niyyətindədir. Öz növbəsində Fransa Prezidenti Emmanuel Makronun səfəri də Parisin Mərkəzi Asiyanın strateji əhəmiyyətli ehtiyatlarına, o cümlədən nadir torpaq metallarına çıxış əldə etməkdə maraqlı olduğunu göstərir.

Beləliklə, Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Aİ-ni birləşdirən Orta dəhliz və ya Trans-Xəzər marşrutu güclü ticarət alyansı yaradır. Pekin də bu proseslərdə iştirak edir və Çindən Avropaya malların tranzitinin 85 faizi Qazaxıstandan keçir ki, bunun da əhəmiyyətli hissəsi Xəzər dənizi və Azərbaycandan keçməklə həyata keçirilir.

TITR Beynəlxalq Assosiasiyası İdarə Heyətinin sədri Nurlan Sauranbayev qeyd edib ki, Orta dəhliz boyu ölkələrdə logistika infrastrukturu bütün marşrut üzrə rəqabətədavamlı daşımaların tam həyata keçirilməsinə imkan verir. TITR Yükdaşımaları Assosiasiyasının məlumatına görə, 2023-cü ildə bu, 65 faizə (2,7 milyon tona qədər) yüksəlib.

Dünya Bankının proqnozuna əsasən, 2030-cu ilə qədər bu marşrutla yükdaşımaların həcmi 3 dəfə artacaq. Avropa Komissiyasının vitse-prezidenti Valdis Dombrovskis Almaniyanın DW nəşrinə müsahibəsində bildirib ki, Aİ TITR-in inkişafı üçün 10 milyard avro investisiya ayırmaq niyyətindədir.

Rusiya-Ukrayna silahlı münaqişəsi başlayandan sonra Avropa Şərqlə ticarət əlaqələri üçün alternativ nəqliyyat marşrutlarına ehtiyac duydu. Azərbaycan hökuməti ölkənin nəqliyyat infrastrukturunu quraraq, qatarların və avtomobillərin tranzit keçidi üçün hər cür şərait yaradıb. Beynəlxalq nəqliyyat marşrutlarının ölkəmizdən keçməsi Azərbaycana təkcə iqtisadi deyil, həm də siyasi dividendlər gətirir.



Azərbaycan.- 2024.- 2 oktyabr (№ 215).- S.6.